Ədəbiyyat qəzeti

5 dekabr / 2020



**Azər Paşa NEMƏTOV**

*aycan Teatr Xadimləri İttifaqının sədri, Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti*

***Məni Kamal Abdulla ilə Həsənağa Turabov tanış edib. O günü çox böyük məmnuniyyətlə və gözəl təəssüratla xatırlayıram. Tanış olandan sonra üçümüz kiçik bir kafedə süfrə arxasında xeyli söhbət elədik. O vaxt Kamal gənc idi. Ədəbiyyatşünaslıq, ədəbi tənqidlə məşğul olurdu. Sonralar bizim tanışlığımız dostluğa çevrildi. Mən bildim ki, o, 190 nömrəli məktəbi bitirib, bizim yuxarı məhəllə dediyimiz məhəllədə yaşayıb. Həmin məhəllənin öz xüsusiyyətləri, öz qanunları var idi. İlk tanış olduğumuz gündən bu yana bizi bir-birimizə çox doğma, əziz, isti tellər bağlayıb.***

***Kamal Abdulla insan kimi də, yazıçı və alim kimi də çox dərin qatlara enməyi bacaran insandır. Mən onun elmi və ədəbi yaradıcılığı ilə yaxından tanışam, əsərlərini çox diqqətlə və böyük maraqla oxumuşam. Əsərlərini oxuyanda Kamalın yazı dilinə, təfəkkürünə, məsələlərə münasibətinə valeh olmuşam. Onun "Kitabi-Dədə Qorqud"la bağlı çox qiymətli, sanballı araşdırmaları, elmi və bədii əsərləri var. Bundan başqa, mütləq qeyd etməliyəm ki, Kamal Abdulla Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri kimi Azərbaycan multikulturalizminin təbliği və dünya universitetlərində tədrisində böyük rol oynayıb, dəyərli işlər həyata keçirib.***

***Kamalın dostlarından danışanda Vaqif İbrahimoğlu və Vaqif Mustafayevin də adını çəkə bilərəm. Bu adını çəkdiyim insanlarla da bizim bir yerdə çox maraqlı, unudulmaz günlərimiz keçib.***

***Mən Kamal müəllimlə bir yerdə Xalq diplomatiyası çərçivəsində Şuşada olmuşam. O görüşümüzü, həmin səfərimizi qəribə hisslərlə xatırlayıram. Bakıdan birlikdə Bərdəyə getdik, orada gecələdik. Səhər Tərtərə yollandıq. Tərtərdə hərbi nümayəndələrin iştirakı ilə təmas xəttini keçdik. Orada bizə dəbilqələr və hərbi bronejilet verdilər. Mən geyinməkdən imtina elədim ki, öz torpağımdan öz torpağıma keçirəmsə, niyə bunları geyinməliyəm? Mənə ilk dəstək verən Kamal oldu. O da imtina elədi. Daha sonra Fərhad Bədəlbəyli və Polad Bülbüloğlu da geyinməkdən imtina etdilər. Bülbülün evini, Şuşa məscidini gördük, Şuşanı piyada gəzdik. Çox təsirli anlar yaşadıq. Yadımdadır ki, o vaxt Kamal maraqlı bir təklif verdi ki, Şuşa məscidi dini və tarixi abidədir, onu biz təmir edək, bu vəziyyətdə olmasın. Amma ermənilər bir bəhanə tapıb bütün təkliflərdən imtina edirdilər. Daha sonra erməni tərəfindən də nümayəndələr Azərbaycana səfər etdilər. Bakıda bizi cənab Prezidentimiz qəbul elədi. Görüşdə dedi ki, biz bütün vasitələrdən istifadə edirik ki, Azərbaycan sülh yolu ilə öz torpaqlarını qaytarsın. Bütün bunlar alınmasa, bir yol qalır: hərb yolu; biz o yoldan istifadə edəcəyik. Nəhayət, o gün gəlib çıxdı.***

***Çox xoşbəxtəm ki, müzəffər ordumuz, hamımızın qürur duyduğumuz Ali Baş Komandanımız bizə qələbə sevinci yaşatdı. Artıq düşmən tapdağında olan torpaqlarımız, bizi Qarabağa aparan yollar üzümüzə açıqdır. Qalib olmaq, haqq savaşından zəfərlə çıxmaq nə qədər gözəl, nə qədər qiymətsiz hisslərmiş. Bu sevinci dostum Kamalla bir yerdə yaşayırıq. Sevinirik, qəhərlənirik, qürur duyuruq, ürəyimiz dağa dönür. Xoşbəxt adamlarıq ki, bu günləri görə bildik.***

***Sonralar mən Kamal Abdullanı maraqlı dramaturq kimi tanıdım. Dramaturq kimi də çox maraqlı və cəlbedicidir. Onun tamaşaları "Yuğ" Teatrında, Akademik Milli Dram Teatrında, Gənclər Teatrında oynanılıb və maraq doğurub. Kamal Abdulla müəllim kimi çoxlu tələbələr yetişdirib və həmin tələbələr bu gün Azərbaycan elminin, ədəbiyyatının layiqli təmsilçiləridir.***

***Mən başqa nə deyə bilərəm? Bunu deməyi də özümə borc bilirəm: dostum Kamal Abdullanı bütün məqamlarda mərd və iradəli görmüşəm. Kamal alim kimi də mərddir, vətəndaş kimi də, dost kimi də. Gəncliyində Kamalı necə tanımışamsa, elə həmin adamdır. Yerişi də həmin yerişdir, insanlara bağlılığı və sadiqliyi də həmindir. Kamal, əziz dostum, yubileyin mübarək. Gəldin bizim yeddi onluğumuza!***